# Azərbaycan Respublikası
# Maliyyə Nazirliyi

## Dövlət Borcu üzrə illik
## Statistik Bülleten

**2024**



## Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi

# MÜNDƏRİCAT


1. Abreviatura ____ 3
2. Bülletendə istifadə olunan əsas anlayışlar ____ 4
3. Giriş ____ 5
4. Dövlət borcu ____ 6
   - 4.1. Borcun strukturu ____ 6
   - 4.2. Dəyişkən faiz dərəcəli borcun ümumi dövlət borcundakı payı ____ 7
   - 4.3. Dövlət büdcəsinin borca xidmət xərclərinin dövlət büdcəsi xərclərindəki payı ____ 7
5. Xarici dövlət borcu ____ 8
   - 5.1. Borcun strukturu ____ 8
   - 5.2. Faiz növləri üzrə bölgü ____ 9
   - 5.3. Kreditorlar üzrə bölgü ____ 9
   - 5.4. Xarici dövlət borcunun ölkənin valyuta ehtiyatlarına nisbəti ____ 10
   - 5.5. Ödəmə müddəti üzrə bölgü ____ 11
   - 5.6. Xarici dövlət borcunun Orta Ödəmə Müddəti ____ 11
   - 5.7. Valyuta üzrə bölgü ____ 12
   - 5.8. Xarici dövlət borcuna xidmət xərci ____ 12
   - 5.9. Avrobondlar üzrə məlumat ____ 13
   - 5.10. İcraçı qurumlar üzrə bölgü ____ 14
   - 5.11. Kreditor növləri üzrə bölgü ____ 15
6. Daxili dövlət borcu ____ 16
   - 6.1. Daxili dövlət borcunun illər üzrə dinamikası ____ 16
   - 6.2. Borcun strukturu ____ 17
   - 6.3. Dövriyyədə olan dövlət qiymətli kağızlarının həcmi ____ 17
   - 6.4. Dövriyyədə olan dövlət qiymətli kağızlarının ödəmə müddəti üzrə bölgüsü ____ 18
   - 6.5. Emissiya olunan dövlət istiqrazlarının orta gəlirlilik dərəcəsi üzrə dinamikası ____ 19
   - 6.6. Dövlət istiqrazları üzrə ödənişlər ____ 19
7. Dövlət zəmanətli borc ____ 21
   - 7.1. Valyuta üzrə bölgü ____ 22
   - 7.2. Ödəmə müddəti üzrə bölgü ____ 22
   - 7.3. Faiz növləri üzrə bölgü ____ 23
   - 7.4. Kreditorlar üzrə bölgü ____ 23


Statistik bülleten-2024

Qrafik 1. Dövlət borcunun ümumi tərkibi 6
Qrafik 2. Dövlət borcunun illər üzrə dinamikası 6
Qrafik 3. Dəyişkən faiz dərəcəli borcun ümumi borc portfelinə nisbəti 7
Qrafik 4. Dövlət büdcəsinin borca xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti 7
Qrafik 5. Xarici dövlət borcunun tərkibinin illər üzrə dinamikası 8
Qrafik 6. Xarici dövlət borcunun faiz növləri üzrə bölgüsü 9
Qrafik 7. Xarici dövlət borcunun kreditorlar üzrə bölgüsü 10
Qrafik 8. Xarici dövlət borcunun ölkənin valyuta ehtiyatlarına nisbəti 10
Qrafik 9. Xarici dövlət borcunun ödəmə müddəti üzrə bölgüsü 11
Qrafik 10. Xarici dövlət borcunun Orta Ödəmə Müddətinin dinamikası 11
Qrafik 11. Xarici dövlət borcunun valyuta üzrə bölgüsü 12
Qrafik 12. Dövlət büdcəsi hesabına xarici borclara xidmət xərclərinin illər üzrə dinamikası 13
Qrafik 13. Xarici dövlət borcunun icraçı qurumlar üzrə bölgüsü 14
Qrafik 14. Xarici dövlət borcunun kreditor növləri üzrə bölgüsü 15
Qrafik 15. Daxili dövlət borcunun illər üzrə dinamikası 16
Qrafik 16. Daxili dövlət borcunun tərkibi 17
Qrafik 17. Dövlət qiymətli kağızlarının həcm üzrə dinamikası 17
Qrafik 18. Dövlət qiymətli kağızlarınn müddət üzrə bölgüsü 18
Qrafik 19. Dövlət istiqrazlarının Orta Ödəmə Müddətinin dinamikası 18
Qrafik 20. Dövlət istiqrazlarının orta gəlirlilik dərəcəsi üzrə dinamikası 19
Qrafik 21. Dövlət istiqrazları üzrə borca xidmət xərclərinin dinamikası 20
Qrafik 22. Dövlət zəmanətli borcun illər üzrə dinamikası 21
Qrafik 23. Dövlət zəmanətli borcun valyuta üzrə bölgüsü 22
Qrafik 24. Dövlət zəmanətli borcun ödəmə müddəti üzrə bölgüsü 22
Qrafik 25. Dövlət zəmanətli borcun faiz növləri üzrə bölgüsü 23
Qrafik 26. Dövlət zəmanətli borcun kreditorlar üzrə bölgüsü 23

Statistik bülleten 2024

# 1. Abreviatura

| | |
|---|---|
| **AİB** | Asiya İnkişaf Bankı |
| **AİİB** | Asiya İnfrastruktur və İnvestisiya Bankı |
| **AYİB** | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| **BİMTS** | Borc İdarəetmə və Maliyyə Təhlili Sistemi |
| **BKTİF** | Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu |
| **BMTTİK** | Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı |
| **BS** | Bank Sindikatları |
| **ÇİB** | Çex İxrac Bankı |
| **DB** | Dünya Bankı |
| **FİA** | Fransa İnkişaf Agentliyi |
| **İİB** | İslam İnkişaf Bankı |
| **KƏİİF** | Küveyt Ərəb İqtisadi İnkişaf Fondu |
| **KfW** | Kreditanstalt Für Wiederaufbau (Almaniya) |
| **KİİB** | Koreya İxrac-İdxal Bankı |
| **MN** | Maliyyə Nazirliyi |
| **OBİF** | OPEC Beynəlxalq İnkişaf Fondu |
| **OÖM** | Orta Ödəmə Müddəti |
| **SİF** | Səudiyyə İnkişaf Fondu |
| **Strategiya** | Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **XBH** | Xüsusi Borcalma Hüququ |
| **YBƏA** | Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi |

Statistik bülleten-2024

# 2. Bülletendə istifadə olunan əsas anlayışlar

**Dövlət borcu** - Azərbaycan Respublikası adından bağlanmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borc.

**Xarici dövlət borcu** - Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının qeyri-rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc.

**Daxili dövlət borcu** - Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc.

**Dövlət zəmanəti** - əsas borcalan götürdüyü borcu borcverənlə razılaşdırılmış qaytarılma şərtlərinə və müddətə uyğun olaraq borcverənə qaytarmadıqda, həmin borc üzrə öhdəliklərin borcverən qarşısında tam və ya qismən yerinə yetirilməsinə dair Azərbaycan Respublikasının qanunvericiliklə müəyyənləşdirilmiş qaydada üzərinə götürdüyü maliyyə öhdəliyi.

**Təkrar borcalan** - dövlət borcalmaları yolu ilə alınmış və qaytarılması dövlət büdcəsi hesabına nəzərdə tutulmayan borc vəsaitindən təkrar müqavilə əsasında istifadə edən hüquqi şəxs.

**Borcun ötürülməsi** - dövlət borcalmaları yolu ilə alınmış borc vəsaitinin təkrar müqavilə əsasında istifadə üçün təkrar borcalana ötürülməsi.

**Qalıq borc** - borcalan tərəfindən istifadə olunmuş vəsait üzrə həyata keçirilmiş əsas borc ödənişləri çıxılmaqla hesabat tarixinə borc öhdəliyi.

**İstifadə olunmuş vəsait** - imzalanmış kredit müqaviləsi üzrə müqavilənin şərtlərinə uyğun olaraq borcalana ayrılmış kredit vəsaitinin borcalan və ya təkrar borcalan tərəfindən istifadə olunmuş hissəsi.

**İstifadə olunmamış vəsait** - imzalanmış kredit müqaviləsi üzrə müqavilənin şərtlərinə uyğun olaraq borcalana ayrılmış kredit vəsaitinin borcalan və ya təkrar borcalan tərəfindən istifadə olunmamış hissəsi.

**Borca xidmət xərcləri** - vaxtı çatmış öhdəliklərin yerinə yetirilməsi məqsədilə ayrılmış maliyyə vəsaiti.

**Əsas borc** - müvafiq əqd üzrə borcalanın borcverəndən cəlb etdiyi vəsaitin hesabat dövrünə qalan hissəsi.

**Faiz borcu** - müvafiq əqd üzrə əsas borca həmin əqddə müəyyən edilmiş faiz dərəcəsi ilə hesablanan maliyyə öhdəliyi.

**İkitərəfli maliyyə institutları** - səhmlərinin nəzarət payı hökumətə məxsus olan və digər hökumətə kredit verən rəsmi maliyyə institutları.

**Çoxtərəfli maliyyə institutları** - üç və daha çox ölkə tərəfindən yaradılan və səhmləri bir çox hökumətlərə məxsus olan beynəlxalq maliyyə institutları.

Statistik bülleten-2024

# 3. Giriş

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi (Agentlik) tərəfindən dövlət borcu sahəsində şəffaflığın təmin edilməsi, Agentlik tərəfindən bu sahədə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması, habelə dövlət borcu üzrə məlumatlara əlçatanlığın təmin edilməsi məqsədilə yarımillik əsasda Statistik Bülleten tərtib edilir. Agentlik tərəfindən Statistik Bülletenin hazırlanması zamanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən açıqlanan makroiqtisadi göstəricilərə və daxili hesabatlığa istinad edilmişdir.

Statistik bülleten-2024

# 4. Dövlət borcu

## 4.1. Borcun strukturu

2025-ci il 01 yanvar tarixinə Azərbaycan Respublikasının dövlət borcu (daxili və xarici dövlət borcu) 27.380,2 milyon manat və ya 2024-cü il üzrə 126.337,0 milyon manat məbləğində olan Ümumi Daxili Məhsulun (ÜDM) 21,7 faizini təşkil etmişdir. Ümumi dövlət borcunun 8.720,5 milyon manatı (5.129,7 milyon ABŞ dolları) və ya 31,8 faizi xarici dövlət borcunun, 18.659,7 milyon manatı və ya 68,2 faizi daxili dövlət borcunun payına düşür.

*Qrafik 1. Dövlət borcunun ümumi tərkibi (milyon manat)*




*Qrafik 2. Dövlət borcunun illər üzrə dinamikası*




statistik bülleten-2024

## 4.2. Dəyişkən faiz dərəcəli borcun ümumi dövlət borcundakı payı

2024-cü ildə Strategiyada nəzərdə tutulan faiz dərəcəsi riskinin məqbul səviyyədə saxlanılması məqsədilə dəyişkən faizli borcun ümumi borc portfelində payının 50 faizi keçməməsi gözlənilmişdir. Dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər ümumi borc portfelinin 15,7 faizini təşkil etmişdir.

*Qrafik 3. Dəyişkən faiz dərəcəli borcun ümumi borc portfelinə nisbəti*




## 4.3. Dövlət büdcəsinin borca xidmət xərclərinin dövlət büdcəsi xərclərindəki payı

2024-cü ildə Strategiyada nəzərdə tutulan ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinin 10 faizindən artıq olmaması üzrə yuxarı hədd gözlənilmişdir. Belə ki, 2024-cü il üzrə dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti 3,4 faiz təşkil etmişdir.

*Qrafik 4. Dövlət büdcəsinin borca xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti*




Statistik bülleten-2024

# 5. Xarici dövlət borcu

## 5.1. Borcun strukturu

01 yanvar 2025-ci il tarixi vəziyyətinə xarici dövlət borcu 5.129,7 milyon ABŞ dolları və ya 2024-cü il üzrə 126.337,0 milyon manat (74.315,9 milyon ABŞ dolları) məbləğində olan ÜDM-in 6,9 faizini təşkil etmişdir. 2025-ci ilin 01 yanvar tarixinə xarici dövlət borcu xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla 2024-cü ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1.331,5 milyon ABŞ dolları və ya 20,6 faiz azalmışdır. 2024-cü il ərzində kredit sazişləri çərçivəsində istifadə olunan vəsait müqabilində 1.376,0 milyon ABŞ dolları məbləğində vaxtı çatmış əsas borc ödənişlərinin, o cümlədən beynəlxalq maliyyə bazarlarında 2014-cü ildə yerləşdirilmiş istiqrazlar (avrobondlar) üzrə 900,0 milyon ABŞ dolları məbləğində ödənişlərin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirmişdir. 2025-ci ilin 01 yanvar tarixinə xarici dövlət borcunun ÜDM-ə nisbəti 2024-cü ilin əvvəli ilə müqayisədə 2,0 faiz bəndi azalmışdır.

*Qrafik 5. Xarici dövlət borcunun tərkibinin illər üzrə dinamikası (milyard ABŞ dolları)*




Statistik bülleten-2024

## 5.2. Faiz növləri üzrə bölgü

Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 49,3 faizini, sabit dərəcə ilə olanlar isə 50,7 faizini təşkil etmişdir.

*Qrafik 6. Xarici dövlət borcunun faiz növləri üzrə bölgüsü*




## 5.3. Kreditorlar üzrə bölgü

2025-ci ilin 01 yanvar tarixinə xarici dövlət borc portfelinin 35,1%-i Asiya İnkişaf Bankının, 27,0%-i avrobondların, 15,8%-i Dünya Bankının, 22,1%-i isə digər kreditorlardan cəlb edilmiş öhdəliklərin payına düşür.

***Cədvəl 1.***

| Xarici dövlət borcunun kreditorlar üzrə bölgüsü | | Abreviatura | 01 yanvar 2025-ci il tarixinə (milyon vahid) | |
|---|---|---|---|---|
| | | | ABŞ dolları | AZN |
| **CƏMİ** | | | **5.129,7** | **8.720,5** |
| 1 | Asiya İnkişaf Bankı | AİB | 1.801,4 | 3.062,4 |
| 2 | Avrobond üzrə investorlar | İnvestorlar | 1.387,3 | 2.358,4 |
| 3 | Dünya Bankı | DB | 811,8 | 1.380,1 |
| 4 | İslam İnkişaf Bankı | İİB | 256,1 | 435,4 |
| 5 | Avropa Yenidənqurma və İnkişaf Bankı | AYİB | 249,3 | 423,8 |
| 6 | Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi | YBƏA | 157,1 | 267,1 |
| 7 | Asiya İnfrastruktur və İnvestisiya Bankı | AİİB | 92,9 | 157,9 |
| 8 | Digər kreditorlar | Digər | 373,8 | 635,4 |

statistik bülleten-2024

*Qrafik 7. Xarici dövlət borcunun kreditorlar üzrə bölgüsü*




## 5.4. Xarici dövlət borcunun ölkənin valyuta ehtiyatlarına nisbəti

2025-ci ilin 01 yanvar tarixinə ölkənin valyuta ehtiyatları (Azərbaycan Respublikası Dövlət Neft Fondu və Azərbaycan Respublikasının Mərkəzi Bankı) 71,0 milyard ABŞ dolları məbləğində olmaqla hesabat dövrünün sonuna xarici dövlət borcunu təqribən 14 dəfə üstələyir.

*Qrafik 8. Xarici dövlət borcunun ölkənin valyuta ehtiyatlarına nisbəti (milyon ABŞ dolları)*




Statistik bülleten- 2024

## 5.5. Ödəmə müddəti üzrə bölgü

Xarici dövlət borcunun 49,0 faizi 5 ilə qədər olan müddətdə, 44,9 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 6,1 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

*Qrafik 9. Xarici dövlət borcunun ödəmə müddəti üzrə bölgüsü (milyon ABŞ dolları)*




## 5.6. Xarici dövlət borcunun Orta Ödəmə Müddəti

Mövcud kredit müqavilələri və avrobondlar üzrə geri ödəniş qrafiklərinə uyğun olaraq xarici dövlət borcunun Orta Ödəmə Müddətinin göstəricisi 5,4 təşkil edir.

*Qrafik 10. Xarici dövlət borcunun Orta Ödəmə Müddətinin dinamikası*




Statistik bülleten 2024

## 5.7. Valyuta üzrə bölgü

01 yanvar 2025-ci il tarixinə xarici dövlət borcunun valyuta tərkibi aşağıdakı kimi olmuşdur: ABŞ dolları – 86,1 faiz, avro – 5,8 faiz, XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) – 3,4 faiz, yapon yeni – 3,1 faiz, digər valyutalar – 1,6 faiz.

*Qrafik 11. Xarici dövlət borcunun valyuta üzrə bölgüsü*




Statistik bülleten 2024

## 5.8. Xarici dövlət borcuna xidmət xərci

2025-ci ilin 01 yanvar tarixinə dövlət büdcəsi hesabına (borca xidmət xərcləri və daxili bazarda dövlət istiqrazlarının yerləşdirilməsindən cəlb edilən vəsait hesabına) xarici borclar üzrə 1.324,0 milyon ABŞ dolları məbləğində əsas borc (o cümlədən 900,0 milyon ABŞ dolları məbləğində avrobondlar), 161,9 milyon ABŞ dolları məbləğində isə faiz borcu ödənişləri həyata keçirilmişdir. Qeyd olunanlarla yanaşı, 2024-cü il ərzində "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanunu"nun 7.1-ci maddəsinə uyğun olaraq xarici dövlət borcu üzrə 308,8 milyon manat (126,4 milyon manat əsas borc ödənişləri, 182,4 milyon manat faiz

ödənişləri) borc ödənişləri "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun vəsaiti hesabına yerinə yetirilmişdir.

*Qrafik 12. Dövlət büdcəsi hesabına xarici borclara xidmət xərclərinin illər üzrə dinamikası (milyon ABŞ dolları)*




## 5.9. Avrobondlar üzrə məlumat

01 yanvar 2025-ci il tarixinə xarici dövlət borcu portfelinin 27,0 faizini və ya 1.387,3 milyon ABŞ dolları məbləğində hissəsini beynəlxalq maliyyə bazarında ticarət olunan xarici valyuta nominallı dövlət istiqrazları (avrobondlar) təşkil edir. Hesabat tarixinə beynəlxalq maliyyə bazarında ticarət olunan dövlət istiqrazları barədə məlumatlar aşağıdakı cədvəldə təqdim olunur.

***Cədvəl 2.***

| Ümumi məlumat | Həcm (milyon ABŞ dolları) | Kupon dərəcəsi |
|---|---|---|
| Ödəniş müddəti 2029-cu ildə başa çatan | 310,7 | 5,125% |
| Ödəniş müddəti 2032-ci ildə başa çatan | 1.076,6 | 3,5% |

## 5.10. İcraçı qurumlar üzrə bölgü

2025-ci ilin 01 yanvar tarixinə xarici dövlət borcu portfelinin 41,7 faizi büdcə kəsirinin bağlanılması üzrə hökumət adından çıxış edən Maliyyə Nazirliyi tərəfindən, 58,3 faizi isə digər icraçı qurumlar tərəfindən həyata keçirilən proqram və layihələr üzrə cəlb edilmiş öhdəliklərin payına düşür.

***Cədvəl 3.***

| Xarici dövlət borcunun icraçı qurumlar üzrə bölgüsü | | 01 yanvar 2025-ci il tarixinə (milyon vahid) | |
|---|---|---|---|
| | | ABŞ dolları | AZN |
| **CƏMİ** | | **5.129,7** | **8.720,5** |
| 1 | Maliyyə Nazirliyi | 2.137,6 | 3634,0 |
| 2 | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 979,8 | 1.665,7 |
| 3 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 714,3 | 1.214,3 |
| 4 | “Azərbaycan Dəmir Yolları” QSC | 708,6 | 1.204,6 |
| 5 | NMR Meliorasiya və Su Təsərrüfatı Agentliyi | 192,1 | 326,6 |
| 6 | Kənd Təsərrüfatı Nazirliyi | 128,7 | 218,9 |
| 7 | Digər | 268,6 | 456,4 |

*Qrafik 13. Xarici dövlət borcunun icraçı qurumlar üzrə bölgüsü*




Statistik bülleten-2024

## 5.11. Kreditor növləri üzrə bölgü

01 yanvar 2025-ci il tarixinə xarici dövlət borcunun 63,3 faizi çoxtərəfli maliyyə institutları üzrə, 27,0 faizi beynəlxalq maliyyə bazarlarında ticarət olunan istiqrazlar (avrobondlar) üzrə, 9,7 faizi isə ikitərəfli maliyyə institutlarından cəlb edilmiş kreditlər üzrə öhdəliklərin payına düşür.

*Qrafik 14. Xarici dövlət borcunun kreditor növləri üzrə bölgüsü*




Statistik bülleten-2024

# 6. Daxili dövlət borcu

## 6.1. Daxili dövlət borcunun illər üzrə dinamikası

01 yanvar 2025-ci il tarixinə daxili dövlət borcu 18.659,7 milyon manat və ya 2024-cü il üzrə 126.337,0 milyon manat məbləğində olan ÜDM-in 14,8 faizini təşkil etmişdir. Daxili dövlət borcu 2024-cü ilin əvvəli ilə müqayisədə 2.793,3 milyon manat artmışdır. Daxili dövlət borcunun artmasının əsas səbəbi Strategiyaya uyğun olaraq ölkədəki qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, habelə xarici dövlət borcunun ümumi dövlət borcundakı xüsusi çəkisinin mərhələli şəkildə azaldılması və daxili borcla əvəzləşdirilməsi, habelə daxili maliyyə bazarında dövlət istiqrazlarının yerləşdirilməsi hesabına dövlət büdcəsi kəsirinin bağlanmasına vəsaitin yönəldilməsi olmuşdur.

*Qrafik 15. Daxili dövlət borcunun illər üzrə dinamikası (milyard manat)*




Statistik bülleten-2024

## 6.2. Borcun strukturu

01 yanvar 2025-ci il tarixinə daxili dövlət borcunun 9.506,0 milyon manatı dövriyyədə olan dövlət qiymətli kağızlarının, 9.153,7 milyon manatı isə hökumətin üzərinə götürdüyü dövlət zəmanətli öhdəliklərinin payına düşür.

*Qrafik 16. Daxili dövlət borcunun tərkibi*




## 6.3. Dövriyyədə olan dövlət qiymətli kağızlarının həcmi

Strategiyaya uyğun olaraq daxili maliyyə bazarının inkişafının dəstəklənməsi məqsədilə, habelə xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsi çərçivəsində 2018-ci il ilə müqayisədə dövriyyədə olan dövlət qiymətli kağızlarının həcmi təqribən 9,0 dəfə artaraq 9.506,0 milyon manata çatmışdır.

*Qrafik 17. Dövlət qiymətli kağızlarının həcm üzrə dinamikası (milyon manat)*




Statistik bülleten-2024

## 6.4. Dövriyyədə olan dövlət qiymətli kağızlarının ödəmə müddəti üzrə bölgüsü

Hesabat tarixinə dövriyyədə olan 9.506,0 milyon manat məbləğində dövlət qiymətli kağızlarının 17,5 faizi 1 illik, 72,4 faizi 2 və 3 illik, 10,1 faizi isə 5 il və daha artıq müddətli qiymətli kağızlarının payına düşür.

*Qrafik 18. Dövlət qiymətli kağızlarınn müddət üzrə bölgüsü*




01 yanvar 2025-ci il tarixinə dövriyyədə olan dövlət istiqrazları üzrə Orta Ödəmə Müddəti (OÖM) 1,47 təşkil etmişdir. Daxili maliyyə bazarında mövcud tələbatın əsasən qısamüddətli (3 ilədək) dövlət istiqrazlarında cəmlənməsi, daha uzun müddətə (5-7 illik) malik dövlət istiqrazlarına isə marağın olmaması dövlət istiqrazları üzrə OÖM-nin son illər ərzində aşağı düşməsinə səbəb olmuşdur.

*Qrafik 19. Dövlət istiqrazlarının Orta Ödəmə Müddətinin dinamikası*




Statistik bülleten-2024

## 6.5. Emissiya olunan dövlət istiqrazlarının orta gəlirlilik dərəcəsi üzrə dinamikası

Daxili bazarda likvidliyin əhəmiyyətli dərəcədə daralması xəzinə istiqrazlarına yönəldilə biləcək pul kütləsini məhdudlaşdırmış və dövlət istiqrazlarına olan tələbatın azalması ilə yanaşı müvafiq olaraq dövlət istiqrazları üzrə gəlirlilik dərəcələrinin artmasına səbəb olmuşdur. Aşağıdakı qrafikdə dövlət istiqrazlarının illər üzrə orta gəlirlilik dərəcəsinin dinamikası əks olunmuşdur. Bununla yanaşı, Azərbaycan Respublikası Mərkəzi Bankının uçot faiz dərəcəsi istinad olaraq göstərilmişdir.

*Qrafik 20. Dövlət istiqrazlarının orta gəlirlilik dərəcəsi üzrə dinamikası*




## 6.6. Dövlət istiqrazları üzrə ödənişlər

2024-cü il ərzində daxili maliyyə bazarında dövlət istiqrazlarının yerləşdirilməsindən əldə olunan vəsait hesabına əvvəlki illərdə buraxılmış dövlət istiqrazları üzrə vaxtı çatmış 1.888,7 milyon manat məbləğində əsas borc ödənişləri investorlara geri qaytarılmış, dövlət büdcəsinin borca xidmət xərcləri hesabına isə 170,3 milyon manat məbləğində faiz və diskont ödənişləri

Statistik bülleten-2024

həyata keçirilmişdir. Qeyd olunanlarla yanaşı, 2024-cü il ərzində “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanunu”nun 7.1-ci maddəsinə uyğun olaraq daxili dövlət borcu üzrə 230,7 milyon manat məbləğində faiz və diskont ödənişləri “Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu”nun vəsaiti hesabına yerinə yetirilmişdir.

*Qrafik 21. Dövlət istiqrazları üzrə borca xidmət xərclərinin dinamikası (milyon manat)*




Statistik bülleten-2024

# 7. Dövlət zəmanətli borc

2025-ci il 01 yanvar tarixinə dövlət zəmanətli borcun məbləği (daxili və xarici borc) 10.957,4 milyon manat və ya 2024-cü il üzrə olan ÜDM-in 8,7 faizini təşkil etmişdir. Dövlət zəmanətinin 9.196,8 milyon manatı (5.409.9 milyon ABŞ dolları) və ya 83,9 faizi xarici kreditlərin, 1.760,6 milyon manatı və ya 16,1 faizi isə daxili kreditlərin payına düşür.

*Qrafik 22. Dövlət zəmanətli borcun illər üzrə dinamikası*




Statistik bülleten-2024

## 7.1. Valyuta üzrə bölgü

01 yanvar 2025-ci il tarixinə dövlət zəmanətli borc portfelinin valyuta tərkibi aşağıdakı kimi olmuşdur: ABŞ dolları – 63,6 faiz, avro – 18,3 faiz, manat – 12,5 faiz, yapon yeni – 3,7 faiz, digər valyutalar – 1,9 faiz.

*Qrafik 23. Dövlət zəmanətli borcun valyuta üzrə bölgüsü*




## 7.2. Ödəmə müddəti üzrə bölgü

Dövlət zəmanətli borcun 72,2 faizi 5 ilə qədər olan müddətdə, 16,4 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 11,4 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

*Qrafik 24. Dövlət zəmanətli borcun ödəmə müddəti üzrə bölgüsü*




Statistik bülleten 2024

### 7.3. Faiz növləri üzrə bölgü

Hesabat tarixinə dövlət zəmanətli borc portfelinin 58,2 faizini sabit, 41,8 faizini dəyişkən faiz dərəcəli borc təşkil edir.

*Qrafik 25. Dövlət zəmanətli borcun faiz növləri üzrə bölgüsü*




### 7.4. Kreditorlar üzrə bölgü

2025-ci ilin 01 yanvar tarixinə dövlət zəmanətli kreditlərin kreditorlar üzrə bölgüsü aşağıdakı kimidir:

Qrafik 26. Dövlət zəmanətli *borcun kreditorlar üzrə bölgüsü*




Statistik bülleten-2024